# Bəşərin ən böyük inqilabı - rəqs

**Rəqs - insan bədəninin ifadəli vəziyyətlərinin dəyişilməsi ilə yaranan bu incəsənət növü 29 apreli özünə dünyəvi bayram edir. İnsanı coşduran, duyğulandıran, yüngülləşdirən, bir sözlə, hər cür psixoloji haldan-hala salan bu musiqili hərəkət vasitəsi bəşər övladının tarixin bütün zamanlarında ayrılmazı, vazkeçilməzi olub. Hətta daşıdığı dinlərdə buna qadağalar qoyulsa belə, insan oğlu hər qadağaya razı olub, amma rəqsdən başqa. Çünki onun duyğularını ifadə edən musiqi ilə həmahəng olub, bütün iliyində, düşüncəsində toplanmış coşqu, xəyal, bəzən ümidləri bu oynaq hərəkətlər üzə çıxarıb. Sevincini, şadlığını, bəzən kədərini, qəzəbini belə rəqslə ifadə edib, ondan azad olub. Elə xalq arasında işlədilən ifadəylə desək "qurdlarını töküb". Təsadüfi deyil ki, ən bədbin, ən üzgün insanları həmişə musiqi və rəqslə terapiya ediblər. Belə deyək, rəqs psixoloqların ən yaxşı əlaltı müalicəvi vasitəsi sayıla bilər.**



Dünyanın bütün xalqlarının rəqs mədəniyyəti, hətta ədəbiyyatının, dilinin, digər adət və ənənlərinin formalaşmasından öncə yaranıb. Rəqs hər bir xalqın kimlik vəsiqəsi kimidir, məhz onun sayəsində bir millətə, topluma aid olan adətləri, davranışları görmək mümkündür. Məsələn bütün dünyaya özünü sevdirən Qafqaz rəqsləri təkcə musiqi ilə hərəkətin müvafiq uyğunlaşması deyil, həm də bu xalqların kişi mərdliyini, ehtirasını, cəsarətini, eləcə də qadın aliliyini, zərafətini, toxunulmazlığını, məğrurluğunu nümayiş etdirdiyinə görə özünü tanıdıb.

Şəxsən həmişə dünya xalqları arasında danışa bilən, özünü ifadə edə bilən rəqslərdən Qafqaz və ispan rəqslərini hesab eləmişəm. Bu danışan rəqslərə əlavə olunan və sonradan yaranmasına baxmayaraq, yenə aid olduğu məkanı, oranın insanını isbatlayan bir rəqs də var ki, 29 aprel - ümumdünya rəqs gününü ona həsr edirik.

Dünyanın ən əsrarəngiz, ehtiraslı və arzulanan rəqsi tanqo - onu bədənin sözsüz söhbəti də adlandırırlar. Bu ehtiraslı söhbətdə çılğınlıq hakimdir, sevgi, qısqanclıq, aqressivlik, hətta mübahisə bir-birini əvəz edir. Əslində qısa rəqs göstərisində bir məhəbbət hekayəsini izləmək mümkündür. Amma... bu çılğın rəqsin yarandığı vaxtlarda yalnız kişilər tərəfindən oynanıldığını bilirdinizmi?! Əslində bunun izahı sadədir: tanqo hər şeydən öncə bir mübarizə, sanki qabaq-qənşər döyüş növünü əks etdirir. Başqa sözlə, kişilər qadın uğrunda mübarizənin rəqs üsulunu bu cür seçmişdilər. Bir növ, bizim Qafqaz rəqsləri kimi - xəncərli, patrondaşlı geyimlərdə olan kişilər sanki bu dəqiqə qanlı döyüşə atılacaqlar. Bunu qadın uğrunda, sevgi naminə kişi mübarizəsində qalibin ayırd edilməsi üçün bir hesablaşma, güc sınama da adlandırmaq olar.

Tanqonun yaranışı ilə bağlı başqa bir maraqlı fakt da var ki, bu rəqs yoxsullar tərəfindən yaradılıb. Argentinanın milli rəqsi hesab edilsə də, vaxtilə bu ölkədə kasıb günlərini rəngarəng keçirmək istəyən mühacirlər tərəfindən yaradılıb. Meyxanalarda, şəhərin kasıb məhəllələrinin küçələrində oynanılan tanqonun ilk vaxtlarda ritm və forma baxımından ciddi qaydaları yox idi. Heç tanqonu ifa edən musiqi alətləri də müəyyənləşdirilməmişdi. Kafelərdə bu rəqs adətən, skripka, fleyta və arfa (sonradan isə onu gitara əvəzlədi) ifa olunurdu.

Tanqo adının Afrika tamtamlarının çıxardığı tan-qo səslərindən, ya da latınca toxunmaq mənasını verən "tangere"- toxunmaq sözündən götürüldüyü ehtimal edilir.

Başlanğıcda kreol tanqosu adlanan bu rəqs və musiqinin hal-hazırda Argentina tanqosu, Uruqvay tanqosu, fin tanqosu və bal tanqosu kimi, ümumilikdə 11 növdə geniş yayılıb. Dünya rəqs incilərinin siyahısına başçılıq edən tanqo uzun zaman təsirlərə məruz qalıb. Təxminən 1910-cu ildən dünya şöhrəti qazanmağa başlayandan sonra elitar dairələr bundan narahat olmağa başladılar. Onlar bu rəqs növündən ehtiyat edirdilər. Çünki tanqonun ehtiraslı musiqisi ürəklərdə yalnız həyatsevərlik və insanpərvərlik yarada bilərdi və bunun nəticəsində də, ola biləcək müharibələrdə uduzmaq şansı yaranırdı. Ona görə də Avstriya imperatoru əsgərlərinə tanqonu hərbi formada oynamağı yasaqlayır, ingilis kraliçası bu rəqsi oynamaqdan imtina edir, Papa X Piy isə bu yeni rəqs növünə qarşı çıxırdı. Lakin 1914-cü ildə argentinalı Kazimir Aininin rumın tələbələri tanqonu Vatikanda ifa edəndə Papa humanistliyini bir daha sübut edərək, öz qadağasını geri götürür.

Tanqo vətəni hesab olunan Argentinada da yasaq olunur. Belə ki, 1930-cu ildə hərbi çevriliş zamanı Arqentinada 18 illik azadlığa son qoyulmaqla, xalqın seçim hüququ əlinlən alınır. Tanqo xalqın seçimlərindən biri olduğuna görə qadağalar ondan da yan ötmur. Lakin tanqonun melodiyası küçələrdən, rəqs meydançalarından, kafelərdən kəsilsə də, musiqiçilər, tarixçilər, sosioloqlar elmi məqalələr, traktatlar, esselər yazmaqla onu yaşatmağa müvəffəq olurlar.

30-cu illərin sonunda Argentinanın siyasi arenasındakı böhrana son qoyulur. Xalq bu əlamətdar günü özünəməxsus tərzdə, meydançalarda rəqs tamaşaları təşkil etməklə qeyd edir ki, bununla da, tanqoya yenidən "bəraət" qazandırılır. Lakin bir müddət keçəndən sonra ölkə başçısı Xuan Peronun həyat yoldaşı, əfsanəvi Eva Peronun dünyasını dəyişməsi hər kəsi sarsıtdığına görə tanqo növbəti dəfə böhranla üzləşməli olur. Həm də o dövrdə rok-n-roll yenicə meydana gəldiyindən maraqlar da ona sarı yönəlir. Lakin bütün bunlara baxmayaraq, tanqo yenə də sevilərək yaşayır. Yoxsulların başlatdığı bu rəqs inqilabı zəngin dairələrdə də maraqla izlənilir və icra edilir.

Tanqo vətəni Argentinanın küçələrində hər gün, hər axşam oynanılır. Axşam saatlarında, işdən sonra dincəlmək üçün argentinalılar tanqonu seçirlər. Hətta turistlər və ya tanqonu oynaya bilməyənlər üçün asfalt yollarda belə qadın və kişi ləpirlərindən ibarət "dərs"lər cizilib. Ləpirlərin üzərinə ayaq basmaqla tanqonu qismən öyrənmək mümkündür. Mütəxəssislər də təsdiqləyirlər ki, bu rəqsi həm izləmək həm də oynamaq günün bütün stressini və gərginliyi aradan qaldırmağa qadirdir.

Tanqo ədəbiyyatda, filmlərdə də öz sözünü deyib. Bunlar arasında son illərdə yazılımış "Tehranda son tanqo" və "Kölgə ilə tanqo" əsərləri daha çox oxucu marağına səbəb olub. Hollivud filmlərində isə məşhur aktyor Al Paçinonun "Qadın qoxusu" və Cenifer Lopezlə Riçard Girin oynadığı "Bəlkə, rəqs edək?" filmindəki ehtiraslı rəqsi hələ də tamaşaçıların dəfələrlə izlədikləri tanqolardandır. Bundan başqa, "Zorro" filmində Antonio Banderas və Ketrin Zeta Consun rəqsi də maraqlı tanqo göstərisindən biridir. Banderasın "Ritmi tut" filmindəki tanqosu da yaddaşlardan çətin silinən rəqslərdən hesab olunur.

Elə yuxarıda sadalanan filmlərdən birinin adı ilə bu günün stressini, ağırlığını atmaq üçün əlinizi uzadıb ən yaxın və əziz tərəf müqabilinizə "Bəlkə, rəqs edək?" deməyi unutmayın!

**Şəfiqə ŞƏFA**


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N:
38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.10
"AZƏRBAY
Telefon: 538-05-50,
ada
adaletqezeti@
Qəzetdə "Olaylar" və